**UOT 323**

# QLOBALLAŞMA PROSESİ MÜASİR DÜNYA SİYASƏTİNİN ƏSAS TENDENSİYALARINDAN BİRİ KİMİ

**N.V.QƏLƏNDƏROV**
***AMEA-nın İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu***
***politoloq527@hotmail.com***

*Məqalədə qloballaşma prosesinin mahiyyəti, xarakteristikası və əsas istiqamətlərindən bəhs edilmişdir. Siyasi, iqtisadi və mədəni qloballaşmanın başlıca xüsusiyyətləri müqayisəli şəkildə analiz edilmişdir. Bu proses müasir dünya siyasətinin əsas tendensiyalarından biri kimi səciyyələndirilmiş, problemi tədqiq edən müxtəlif araşdırmaçıların fikirləri diqqətə çatdırılmışdır. Qloballaşma tendensiyasının milli dövlətlərin taleyinə təsiri və gələcək nəticələri tədqiqata cəlb olunmuşdur.*

**Açar sözlər**: qloballaşma, beynəlxalq münasibətlər sistemi, milli dövlətlər, geosiyasi transformasiya, siyasi inteqrasiya

XXI əsr yekdilliklə dünya iqtisadiyyatının qloballaşması, transmilli iqtisadi strukturların və maliyyə institutlarının fəaliyyət sahəsinin dünya miqyasında genişlənməsi, kapitalın, malların, işçi qüvvəsinin getdikcə artan yerdəyişməsi və dövriyyəsi əsasında qarşılıqlı iqtisadi asılılığın güclənməsi kimi xüsusiyyətlərlə xarakterizə olunur (6, 76). XX əsrin 90-cı illərinin əvvəllərində dünya xəritəsi növbəti dəfə geosiyasi cəhətdən önəmli dəyişikliklərə məruz qaldı. SSRİ-nin süqutu nəticəsində bütün dünyada, xüsusilə də Avrasiya məkanında geosiyasi vəziyyət və statuslar əsaslı şəkildə dəyişikliyə uğradı. Şərqin lideri SSRİ-nin bir geosiyasi rəqib kimi aradan qalxması Qərb yarımkürəsinin bir nömrəli aktoru olan ABŞ-ın yeganə qlobal dövlətə çevrilməsi prosesinin zirvəsi oldu. Bu, həm də ABŞ-ın qlobal dövlət statusu ilə əlaqədar olaraq yeni problemin meydana çıxmasına səbəb oldu. Belə ki, qlobal lider dünyanı idarə etmək üçün ilk növbədə Avrasiyada qüvvələr balansının saxlanılmasını təmin etməli idi. Məhz bu cür şəraitdə qloballaşma adlanan prosesə start verildi. Qloballaşma öz növbəsində dövlətlərarası münasibətlərə və beynəlxalq münasibətlər sisteminə yeni çalarlar və təmayüllər əlavə etdi. Bununla da qlobal siyasi proseslər və münasibətlər əsaslı şəkildə intensivləşdi və hər bir dövlət özünün xarici siyasi strategiyasını müəyyənləşdirərkən qloballaşma tendensiyasının fonunda cərəyan edən prosesləri nəzərə almaq məcburiyyətində qaldı.

Qloballaşma prosesi müasir dünya siyasəti və beynəlxalq münasibətlər sisteminin başlıca tendensiyalarından biri hesab edilir. Məhz buna görə də bu problem müxtəlif strateji araşdırmaların fundamental tədqiqat obyekti kimi çıxış etməkdədir. Qloballaşma yeni proses olmayıb, tarixin müxtəlif dövrlərində bu və ya digər səviyyə və formada təzahür etmişdir. Qloballaşma anlayışından ilk dəfə beynəlxalq iqtisadi proseslər və münasibətlər üzrə aparıcı araşdırmaçı-analitik Teodor Levit 1983-cü ildə "Harvard business review" ("Harvard biznes icmalı") jurnalında çap edilən "Bazarların qloballaşması" məqaləsində istifadə etmişdir. O, qloballaşma dedikdə ayrı-ayrı transmilli korporasiyaların istehsal etdikləri məhsulların bazarlarda bir-birinə qovuşması-sağlam rəqabət əsasında qarşılıqlı inteqrasiyası prosesini ifadə etmişdir. Lakin bu yanaşma sistematik deyildir və qloballaşma prosesini sadəcə bir aspektdən-bazar məhsullarının inteqrasiyası formasında ifadəsi səciyyəsi daşıyırdı. 1987- ci ilə qədər isə ABŞ Konqresində adında "qloballaşma" məfhumu işlədilən heç bir kitab haqqında məlumat yox idi (2, 425).

Qloballaşma anlayışına və prosesinə akademik status verilməsi və müxtəlif sahələri özündə ehtiva edən proses kimi yanaşılması araşdırmaçı-sosioloq Roland Robertsonun adı ilə bağlıdır. R.Robertson ilk dəfə olaraq qloballaşma prosesinə tarixi aspektdən yanaşmış və onun müxtəlif mərhələlərdən keçərək bugünkü formaya gəldiyini bildirmişdir. Sosioloq qeyd etmişdir ki, qloballaşma prosesi XV əsrdən sistematik olaraq start almışdır. Qloballaşmanın müxtəlif mərhələlərdən keçdiyini bildirən Robertson vurğulamışdır ki, bu prosesdə təzahür edən hər bir mərhələ özündən əvvəlkindən daha mürəkkəb və rəngarəng olmuşdur. Ümumilikdə isə, tədqiqatçının gəldiyi yekun qənaət ondan ibarətdir ki, qloballaşma adlanan prosesin mahiyyəti budur ki, bu proses dünyanın inteqrasiya olunmuş - "birləşmiş" halıdır. O, qloballaşma prosesinə və probleminə tarixi aspektdən yanaşaraq diqqəti ona yönəltdi ki, qloballaşma tendensiyası tarixin müxtəlif mərhələlərində təzahür və təcəssüm edən real prosesdir: "Qloballaşma XIX əsrin sonu və XX əsrin bütün dönəmlərində daha da sürətləndi və beynəlxalq münasibətlər sisteminin qaçılmaz və əvəzedilməz prosesinə çevrildi. Bu prosesə kimin necə yanaşmasından asılı olmayaraq qloballaşma artıq bütün dünya dövlətlərinə bu və ya digər səviyyədə təsir və sirayət etməkdədir. Qloballaşma prosesi inteqrasiya meyllərini gücləndirdi, dövlətlərarası münasibətlərə yeni forma verdi. İndi hər bir dövlət özünün daxili və xarici siyasi strategiyasını müəyyən edərkən və tətbiqi zamanı qloballaşma amilini mütləq mənada nəzərə alır və ya bu, artıq zərurətə çevrilmişdir" (7, 82).

Qloballaşma problemini fundamental araşdırmaların tədqiqat obyektinə çevirən digər bir araşdırmaçı İmmanuel Vallerstayndır. İ.Vallerstayn qloballaşmaya iqtisadi cəhətdən yanaşmışdır. Tədqiqatçı qloballaşmanı kapitalist dünya iqtisadiyyatının qloballaşması kimi səciyyələndirib. Onun yanaşmasına görə, qloballaşma kapitalist sərmayəsinin axımı və beynəlxalq inteqrasiya və asılılığın güclənməsidir. O, qeyd edir ki, qloballaşma bərabərsizliyi yaradan və gücləndirən prosesdir. Vallerstaynın qloballaşma prosesinin əsas meyllərini bu

cür təsvir edir: "Qloballaşma prosesinin əsas tendensiyaları iqtisadi münasibətlərin inteqrasiyası və intensivləşməsi, qlobal və regional bazarlar uğrunda savaşların və rəqabətin güclənməsi, iqtisadi böhranların mütəmadi qaydada baş verməsi, iqtisadi qruplaşmaların yaranması, sərmayə axımı və artımının daha da güclənməsi, transmilli korporasiyaların fəaliyyət dairəsinin genişlənməsidir (11, 80).

Qloballaşma yekcins istiqamətli proses deyil. Onun müxtəlif sfera və istiqamətləri mövcuddur ki, bunların hər birinin ayrılıqda təhlil və izah edilməsi strateji önəm kəsb edir. Bu proses struktur baxımından çoxölçülü tendensiya kimi qiymətləndirilir. Məhz buna görə də qloballaşma prosesi 3 başlıca sahə və sferanın fonunda təzahür edir. Yəni bu tendensiya daha çox 3 istiqamətdə cərəyan edir və ya bu prosesin üç başlıca sahəsi fərqləndirilir: iqtisadi, siyasi və mədəni qloballaşma. Əslində, iqtisadi, siyasi və mədəni qloballaşma bir-birindən ayrı mövcud olmayıb, tamın-sistemin ayrı-ayrı zəruri elementlərini təşkil etməkdədirlər. Çünki qloballaşma iqtisadi, siyasi və mədəni istiqamətləri əhatə etməklə vahid strateji məqsədə xidmət edir: Konkret aktorlar tərəfindən vahid mərkəzdən vahid qanunlar əsasında dünyanın idarə edilməsi və ya "qlobal dövlət"in formalaşdırılması (4, 97).

Qloballaşmaya iqtisadi proses kimi yanaşanlar və ya iqtisadi qloballaşmanı ön plana çəkən tədqiqatçılar bildirirlər ki, qloballaşma, əslində, iqtisadi tələbatların ödənilməsi və ticari maraqların təmin olunması üçün dünyanı idarə edən güclər tərəfindən ortaya çıxarılmış ssenaridir (11, 80). Bu ssenari kapital dövriyyəsinin və sərmayə imkanlarının vahid əldə cəmləşdirilməsi üçün nəhəng iqtisadi aktorlara geniş imkanlar verir. Qloballaşma, əslində, dövlətlər və iqtisadi institutlar arasında əmək bölgüsünün dərinləşməsi və formalaşmasının fonunda ortaya çıxan real prosesdir.

Tədqiqatçılar bildirirlər ki, qloballaşma ticari-iqtisadi münasibətlərdə vahid standartların yaranması, istehsal, istehlak və ticarətin unifikasiyasıdır. İqtisadi qloballaşma şəraitində dünyada ucuz işçi qüvvəsi, ucuz xammal, istehlak, istehsal xərclərinin azaldılması və satış bazarlarının ələ keçirilməsi uğrunda kəskin rəqabət və mübarizə gedir (1, 163).

Qloballaşmanın digər təzahür sahəsi siyasi qloballaşmadır. Ümumiyyətlə, bir çox araşdırmaçılar qloballaşmanın özünü iqtisadi motivlərə söykənən siyasi tendensiya adlandırırlar. İ.Vallerstayn, P.Samuelson, C.Neysbit, M.Ross, H.Bekker, U.Kristofer kimi araşdırmaçılar qeyd edirlər ki, siyasi qloballaşma bir növ "qlobal imperatorluq" qurmaq uğrunda ortaya çıxarılmış ssenaridir. Onların qənaətincə, tendensiyadır. Burada əsas məqsəd iqtisadi, siyasi, hərbi, ideoloji və mədəni mexanizmlərin və proseslərin "vahid əllər"də cəmləşdirilməsidir. Mərkəzi aktor qismində isə, heç şübhəsiz, ABŞ və onun Qərbi Avropadakı lokomotiv tərəfdaşları (İngiltərə, Fransa, Almaniya və İtaliya kvarteti) çıxış edirlər. P.Berger bildirir ki, dünyanın nüfuzlu araşdırmaçılarının yekun qənaəti odur ki, siyasi qloballaşma Amerikanın siyasi və iqtisadi hegemonluğunun bariz ifadəsidir (2, 427).

Deyilənlərdən aydın olur ki, siyasi qloballaşma milli dövlətlər arasındakı sərhədlərin "əridilməsi"ni həyata keçirən transmilli tendensiyadır. Siyasi qloballaşma şəraitində milli maraq məfhumu və prinsipi ikinci plana atılır, bununla da transmilli strateji hədəflər və maraqlar ön plana çəkilir. Buna müvafiq olaraq hər hansı bir milli dövlətin milli maraqlarının təmin olunması özlüyündə avtomatik olaraq "qloballaşma oyunu"nun ssenaristlərinin transmilli maraqlarının təmin olunması ilə ayrılmaz bağlılıq kəsb edir. Məsələni bu rakursdan qiymətləndirən F.Kratoçvil qeyd edir ki, qloballaşma tendensiyasının fonunda "milli maraq" "ictimai maraq"dan, "transmilli maraq" isə "milli maraq"dan daha üstün önəm kəsb etməyə başlayır (10, 32). Onun yanaşmasına görə, "milli maraq" fenomeni beynəlxalq münasibətlər sisteminin aparıcı prinsipidirsə, qloballaşma tendensiyasının intensivləşdiyi zaman və məkan şəraitində artıq "transmilli maraq" daha qabarıq və təsirli mahiyyətə sahibdir: " İctimai maraq anlayışından daxili etirazlara qarşı nemətin, sərvətin artırılması məqsədilə istifadə edilib. "Milli maraq" anlayışından xarici siyasi strateji məqsədlərin təmin olunması üçün istifadə olunub. "Transmilli maraq" məfhumu isə milli dövlətlərin fövqündə dayanan qlobal aktorların dünya miqyasındakı strateji tələbatlarının ödənilməsinin önəmini ifadə etmək dövriyyəyə buraxılıb".

Qloballaşma prosesinin digər bir istiqaməti isə mədəni qloballaşmadır. Mədəni qloballaşma məsələsini müxtəlif araşdırmaçılar müxtəlif cür qiymətləndirirlər. Bəzi tədqiqatçılar mədəni qloballaşmanı ideoloji aksiya kimi dəyərləndirirlər. Məsələn, İ.Vallerstayn qeyd edir ki, mədəni qloballaşma dünyanı idarə edən qlobal aktorlar tərəfindən məharətlə istifadə edilən ideoloji silahdır. Mədəni qloballaşma tendensiyasının arxasında və əsasında dayanan güclər millətlərin mədəni dəyərlərini-milli xarakter və mədəniyyətlərini, adət-ənənələrini "sıradan çıxararaq" homogen mədəniyyət yaratmağa çalışırlar. Bundan sonra isə mədəni dəyərləri "əridilmiş" millət dünyanı idarə edən güclərin formalaşdırdığı "qlobal imperatorluğun" sadə bir elementinə çevrilirlər. Mədəni qloballaşma adı altında həyata keçirilən inteqrasiya prosesi çox hallarda kiçik millətlərin və etnik qrupların assimiliyasiyası ilə nəticələnir (11, 80). Əlbəttə, qloballaşma prosesinin fonunda millətlərin qarşılıqlı - tarazlı inteqrasiyası, dəyərlərin uzlaşdırılması və paylaşdırılması, eləcə də yeni dəyərlərin yaradılması prosesləri də ortaya çıxır. Bunun üçün isə hər bir millətin öz dəyərlərini, adət-ənənələrini qoruyub saxlaması, həmçinin digər millətlərin eyni dəyərlərinə hörmət etməsi prinsipi xüsusi şəkildə nəzərə alınmalı və tətbiqi müstəviyə transfer edilməlidir. Deyilənlərlə yanaşı, mədəni qloballaşma tendensiyasının fonunda müxtəlif millətlərin ayrı-ayrı nümayəndələrində "lokal" mədəni dəyərlərin formalaşdırılması halına da rast gəlinir ki, bu da bütövlükdə kosmopolitləşmə prosesini sürətləndirir. Kosmopolitləşmiş vətəndaşları daha çox olan millətin isə milli-mənəvi dəyərləri asanlıqla tarixin arxivinə yollanır. Bu da nəticə etibarilə daha şiddətli və faciəvi hal olan "manqurtlaşma" tendensiyasına yol açır. Əlbəttə, bu deyilənlərin hər biri kor-koranə şəkildə qloballaşma prosesinə qoşulmaqdan irəli gəlir. Milli-mənəvi dəyərləri və

maraqları əsas tutmaqla qloballaşma prosesinə qoşulmaq isə assimiliyasiya problemini aradan qaldırmaqla yanaşı, millətlər arasında qarşılıqlı-faydalı-uzlaşdırılmış əməkdaşlıq və inteqrasiya prosesinə də təkan vermiş olur. Bundan başqa, mədəni qloballaşma prosesi iqtisadi və siyasi qloballaşmaya təkan verən tendensiya və proses qismində çıxış edir. Ona görə də qloballaşma prosesinin ssenarisini hazırlayan və icra edən qlobal aktorlar ideoloji silah və vasitə qismində mədəni qloballaşma prosesindən kütləvi şəkildə istifadə edirlər. Vallerstayn qeyd edir ki, mədəni qloballaşma prosesi iqtisadi qloballaşmanın fundamental təminatçı prosesi qismində çıxış edir, iqtisadi qloballaşma isə, öz növbəsində, siyasi qloballaşmanı "çağırır". Məhz buna görə də, qloballaşma prosesinin "ideoloji lokomotiv"i qismində məhz mədəni qloballaşma çıxış edir. Bundan başqa, mədəni qloballaşma prosesi uzunmüddətli tendensiya olmaqla yanaşı, nəticəsi ən gec "dağıdılan" prosesdir. Bununla yanaşı, bir sıra araşdırmaçıların fikrincə, mədəni qloballaşma prosesi "millətlərin identikliyi" prosesini intensivləşdirməkdədir. Məsələn, Antoni Hiddens qeyd edir ki, qloballaşma prosesinin fonunda millətlərin inteqrasiyası prosesi heç bir dövrdə olmadığı qədər sürətlənib. O bildirir ki, dünyada heç bir ölkədəki yaşayış tərzi, mədəni dəyərlər digər ölkələrdə olduğundan kəskin şəkildə fərqlənmir. Onun fikrincə, qloballaşma dünya ictimaiyyətinin qarşılıqlı asılılığının artmasıdır (7, 83).

Martin Kher isə qeyd edir ki, qloballaşma əsrlər boyu üçüncü dünya ölkələrində mövcud olan müstəmləkəçiliklə eyniləşdirilməlidir. Onun fikrincə, qloballaşma prosesi qaçılmaz və zəruri prosesdir. Müəllif bildirir ki, qloballaşma bir növ imperializmdir. Onun qənaətincə, bu imperializm dünya xalqları üzərində nəzarət və təsir mexanizmlərini ələ almağa çalışan qlobal aktorların strateji planlarının bir elementidir (9, 172).

David Held və Toni Mc Gryu kimi araşdırmaçılar isə hesab edirlər ki, qloballaşma sosial münasibətlər və əməliyyatların məkanca təşkilinin transformasiyasını əhatə edir. Onların yanaşmalarına görə, qloballaşma prosesinin fonunda inteqrasiya tendensiyası daha da intensivləşir və milli kimliklər qlobal kimliyə çevrilir. Müəlliflər qeyd edirlər ki, qloballaşma kapitalizmlə birlikdə ortaya çıxıb və bir qrup aktorların mərkəzində dayandığı uzunmüddətli tendensiyadır (8, 113).

Türkiyəli araşdırmaçı Suat İlhan isə belə bir fikir ifadə edir ki, qloballaşma bizdən minilliklərə söykənən mədəniyyət və mentalitetimizi dörd əsrlik tarixə sahib olan Amerika mədəniyyətinə dəyişməyi tələb edir . O qeyd edir ki, qloballaşma Amerikanın siyasi, iqtisadi və mədəni hegemonluğuna hesablanıb. Onun fikrincə, qloballaşma nəticəsində orta əsr müstəmləkəçiliyi yeni formada təzahür etməkdədir. S. İlhan bildirir ki, qloballaşma heç də bütün millətlər üçün parlaq və arzuolunan perspektiv vəd etmir. Müəllifin fikrincə, qloballaşma hazırkı dünya nizamının fonunda artıq qaçılmaz prosesə və şərtə çevrilib: "Qloballaşma prosesi yeni dünya nizamının başlıca tendensiyalarının birincisidir. Milli dövlətlərin suverenliyinin zəifldədilməsinə və sərhədlərin aradan qalxmasına gətirib çıxaran bu proses qlobal kapital dövriyyəsi və sərmayə axımının bir

əldə cəmləşməsi ilə nəticələnir” (8, 112).

Bundan başqa, bəzi araşdırmaçıların yekun qənaəti ondan ibarətdir ki, mədəni qloballaşma Qərbin inkişaf etmiş ölkələrinin “mədəni dəyərləri”nin və həyat tərzinin üçüncü ölkələrə “sırınması” prosesidir. Məsələn, “mədəni imperializm” anlayışından ilk dəfə istifadə edən araşdırmaçı Herbert Şiller belə bir fikir irəli sürür ki, mədəni qloballaşma prosesi vahid mərkəzdən yönləndirilən ideoloji aksiyadır. O bildirir ki, mədəni qloballaşma uzunmüddətli tendensiyadır və bütün dünya xalqlarını əhatə edir: “Mədəni qloballaşma “zəncirvari proses” olan qloballaşma prosesinin mühüm tendensiyasıdır. Ona görə də dünyanı idarə edən qlobal aktorlar mədəni qloballaşma vasitəsindən maksimum səviyyədə yararlanırlar. Onun konkret mahiyyəti odur ki, dünyadakı bütün xalqların homogen mədəniyyəti formalaşdırılsın və vahid mərkəzdən idarə edilsin”.

A.S.Panarinə görə, qloballaşmanı ənənəvi ərazi, sosiomədəni və siyasi sədlərin (dövlətləri bir-birindən ayırmayan lakin onları bir-birinə təcavüzdən qoruyan) zəifləməsi və yeni beynəlxalq qarşılıqlı fəaliyyət və asılılıq sisteminin qurulması kimi müəyyən etmək olar (2, 427). Onun fikrincə, dünya xalqları obyektiv qarşılıqlı fəaliyyət baxımından qloballaşmanın yüksək, qlobal problemlərin həlli üçün bir-birilə subyektiv siyasi fəaliyyət baxımından isə çox aşağı səviyyəsindədir. “Siyasəti xalqların taleyini əlaqələndirən, bəşəriyyət üçün vahid tarixi perspektiv hazırlayan, inteqrasiyaetdirici bir faktor kimi qəbul etmək lazımdır. Əgər siyasət hakimiyyət “istehsalı”dırsa, onda qlobal siyasət dünya miqyasında hakimiyyətin “istehsalı”, bölüşdürülməsi və yenidən bölüşdürülməsi ilə əlaqəli dramdır”.

Bundan başqa, qloballaşma prosesinə hansı formaları verməyin mümkünlüyü məsələsinə müxtəlif yanaşmalar mövcuddur:

Birinci yanaşma milli dövlət modeli əsasında dünya birliyinin yaradılmasını nəzərdə tutur. Bu fikrin tərəfdarları “dünya hakimiyyəti” ideyasını irəli sürürlər. Lakin bu hakimiyyətin legitimliyi şübhə doğurur. Belə ki, əksər beynəlxalq münasibətlər üzrə mütəxəssislər razılaşırlar ki, bu institutun yaradılması ideyası vaxtından əvvəl meydana çıxıb. Buna görə də yaxın zaman üçün dünya birliyi, çətin ki, ayrı-ayrı aktorların mövcud normalara tabeçiliyini təmin edən mərkəzi instituta malik olsun. Bu mənada beynəlxalq münasibətlərin əsas xarakteristikası əvvəlki kimi anarxiyadır.

İkinci yanaşma tərəfdarları qloballaşma prosesini idarə etmək üçün fəaliyyət göstərən əsas subyekt kimi BMT-ni təkmilləşdirməyi təklif edirlər.

Üçüncü yanaşmanın tərəfdarları qloballaşma prosesinin təməl strateji aktoru kimi qlobal problemləri öz şərtləri daxilində həll etməyə üstünlük verən ABŞ-ı və digər superdövlətləri görürlər. Bu yanaşma inkişaf etmiş ölkələrdə daha geniş yayılmışdır.

Dördüncü yanaşma tərəfdarları kooperativ qlobal idarəetməni vacib sayırlar.

Bəhs edilən araşdırmaçılarla yanaşı, ideoloji cərəyan və ya dünyagörüşü

sistemi kimi çıxış edən bəzi konseptual mənbələrdə də qloballaşma prosesinə müxtəlif yanaşmalar yer alıb. Bunlardan bir neçəsinə nəzər salmaq məqsədəmüvafiqdir:

**Modernizm və postmodernizm nəzəriyyələrinin yanaşması**: Qloballaşma və sosial dəyişiklik barədə debatın son əsas nöqtəsi modernizm və postmodernizmlə bağlıdır. Bu yanaşmanın tərəfdarları birmənalı şəkildə bildirirlər ki, qloballaşma müasir cəmiyyətdən inkişaf edərək ortaya çıxmış bir məhsuldur. A.Hiddens bunu tezis şəklində ifadə edib: "Müasirlik qloballaşır" (5, 28).

Bir sıra sosioloqlara görə, qloballaşma daha yüksək, ali, radikal müasirliyin yaranması və inkişafı ilə assosiasiya olunur. Qlobal münasibətlərin yayılması rasionalizm, bürokratizm, kapitalizm və industrializm kimi müasir strukturların hakimiyyəti, üstünlüyünün daha da genişlənməsi və dərinləşməsinə səbəb olur. Bu kontekstdə Ulriç Bek qloballaşmanı "yeni müasirlik" və "müasirliyin müasirləşməsi" kimi ifadə edir (5, 28). Onun qənaətincə, industrial cəmiyyət təhlükəsizliklərlə dolu riskli cəmiyyətlə əvəz olunur. Beləliklə, qloballaşma cəmiyyəti postmodern eraya doğru aparır. Postmodernizmi isə bir çoxları postindustrial cəmiyyətlə eyniləşdirirlər. David Harvey isə, postmodernizmi qlobal kapitalizm və mədəni dəyişikliklə eyniləşdirir. Martin Albrou isə bildirir ki, "Qızıl Era" modernizmdən kənardadır, çünki qloballaşma sosial təşkilatın əsasları olan rasionallıq və millət – dövləti əvəz edəcək.

Liberalizm cərəyanının nümayəndələrinin yanaşması da spesifik xarakter daşıyır. Bu cərəyanın yanaşmasında söhbət qloballaşmanın yaxşı və ya pis olmasından gedir. Bu konsepsiya əsasən "o, bəşəriyyətin vəziyyətini yaxşılaşdırır, yoxsa əksinə?" sualına cavab axtarır. Bildirilir ki, qloballaşma elə bir ssenaridir ki, yeni yaranan "dünya cəmiyyəti"nin hər bir üzvü bundan bəhrələnir.

Liberalizm cərəyanının bəzi nümayəndələri isə qloballaşma prosesinin sonunu "qlobal anarxiya" kimi proqnozlaşdırırlar. Onlara görə, qloballaşma ultramillətçilik, irqçilik, dini fundamentalizm və terrorizmdə olduğu kimi, dözümsüzlük və zorakılığa istiqamətləndirir. Qloballaşmanın texnologiyaları (kompüterlər, raketlər, peyklər və s.) texnomüharibə və media müharibəsinə gətirib çıxarmışdır. Nəticə etibarilə, bu konsepsiya kontekstində qloballaşmanın bəşəriyyətin təhlükəsizliyinə təsiri ilə bağlı mübahisələrdə bir tərəf qloballaşmanı sülh, sabitlik, rifah və düzgünlüyün təmin olunduğu "tarixin sonu" ilə əlaqələndirdiyi halda, digər tərəf "yeni dünya nizamsızlığı" və ya "qlobal xaos" kimi proqnozlaşdırır.

Bunlarla yanaşı, qloballaşma və onun nəticələrinə sosioloji nöqteyi-nəzərdən yanaşanlar da bütöv bir konsepsiya ortaya qoyublar. Bu nöqteyi-nəzər daha çox Qərb sosiologiyasında öz əksini tapmışdır.

Bu yanaşmanın tərəfdarlarının qənaətincə, qloballaşma nəinki sosial inteqrasiyanı saxlayır, hətta dərinləşdirir. Qloballaşmanın maddi mənfəəti demək olar ki, bütün ölkələrdə varlı təbəqənin əlinə keçir və gəlirlər arasında fərq artır. Qloballaşma həm də dövlətlər arasında qeyri-bərabərliyi artırır.

Sosial bərabərlik nöqteyi-nəzərindən o da qeyd edilməlidir ki, qlobal münasibətlər irqi ayrı-seçkiliyi intensivləşdirir. Onlar üçün "qlobal aparteid" dövrü başlanır. Bir sıra tənqidçilərə görə, BVF və Dünya Bankı kimi təsisatlar institusional rasizmin simvoludur. Başqa bir qeyri-bərabərlik şəhərlərdən kənarda yaşayan insanlara qarşı olan qeyri-bərabərlikdir. Qloballaşmanın mənfəətindən şəhərlər daha çox yararlanırlar. Dünya iqtisadiyyatının transformasiyası, qlobal "kəndsizləşmə"yə gətirib çıxarır.

Qloballaşma prosesini demokratikləşmə - demokratik tranfsormasiya nöqteyi-nəzərdən qiymətləndirənlər də spesifik ideyalar irəli sürürlər. Bir çoxları qloballaşmanı demokratikləşmə kimi qiymətləndirirlər. "Soyuq müharibə"nin bitməsindən sonra dünyada liberal demokratiya daha geniş yayıldı. Latın Amerikası və Asiyada hərbi rejimlərə son qoyuldu, Cənubi Afrikada aparteid sona çatdı, Avropada "dəmir pərdə" söküldü. Çoxpartiyalılıq, azad və ədalətli seçkilər və vətəndaş hüquqlarının qanunla təminatı ümumdünya normalarına çevrildi. Qlobal idarəetmə insanları və qlobal vətəndaş cəmiyyəti insan hüquqlarını və "yaxşı idarəetmə" normalarının inkişafına böyük təsir göstərir.

Volter Vristona görə, informasiya dövrü dünyanın istənilən hissəsində insanlara elə imkanlar verir ki, bu, bir neçə il öncə mümkün deyildi. Elektronik kommunikasiyalar vətəndaşlara inanılmaz sürətlə və böyük həcmdə informasiya əldə etməyə şərait yaradır. Telefon, e-mail, radio, televizor, internet, sosial şəbəkələr vətəndaşlara öz fikirlərini əvvəlkindən fərqli olaraq hakimiyyətə çatdırmağa imkan verir. Elektronik kommunikasiyaların köməyilə həm də planet boyu bütün vətəndaş aktivistlər proqressiv sosial dəyişiklik uğrunda qlobal demokratik kompaniyada öz fikirlərini bildirir və strategiyanı koordinasiya edirlər (6, 78).

Skeptiklər isə qloballaşmanı demokratiya ilə qarşılaşdırırlar. Bir çox müəlliflər bu yeni dünya nizamını "aşağı intensivli demokratiya" ilə eyniləşdirir və burada məhdud elita nəzarəti öz əlində saxlayır.

Bir çox kritiklər, xüsusilə demokratik qloballaşmış dünyanı dövlət vasitəsilə idarə etməyi mümkün hesab etmirlər. Dövlətlər, onların keçirdiyi referendum və seçkilər sinfi bərabərsizlik, Şimal – Cənub qarşıdurması, gender ierarxiyası, azlıqların tabe edilməsi kimi problemləri həll edə bilmir (3,56).

Digər analitiklərə görə, dövlətlər əvvəllər millətin iradəsini ifadə edirdisə, indi qloballaşma nəticəsində milli dövlətlərin demokratik qabiliyyəti aradan qalxmışdır. Məsələn, dövlətlər qlobal kooperasiyaların tiranlığına son qoya bilmirlər. Qlobal maliyyə bazarları demokratikləşmə imkanlarını məhdudlaşdırır. Bundan əlavə, xüsusilə kiçik dövlətlər Beynəlxalq Atom Enerjisi Agentliyi, Dünya Ticarət Təşkilatı və s. kimi qlobal qurumlar qarşısında öz vətəndaşları üçün demokratiyanı təmin edə bilmirlər. Paradoks ondadır ki, bir çox dövlətlər liberal demokratiyanı dövlət mərkəzli demokratiyanın tarixi istifadə müddəti bitdikdən sonra qəbul ediblər.

Elektronik demokratiya məsələsində isə skeptiklər bildirirlər ki, dünya

əhalisinin kiçik bir qisminin internetə çıxış imkanları var. Yəni informasiya və kommunikasiya texnologiyaları hakimiyyətə ictimai rəy üzərində nəzarət və ona manipulyasiya imkanları verir.

Kritiklərin bəziləri isə qloballaşmanı demokratiyanı yenidən qurmaq imkanı kimi də qiymətləndirirlər. Bu yeni fenomen xalqın tələb və ehtiyaclarına dövlət mərkəzli demokratiyadan daha yaxşı cavab verə bilər. Digər islahatçılar regional səviyyədə demokratiyanı (məsələn: Avropa Birliyi kimi millətüstü vahid institusional qurumların idarə etməsi) irəli sürürdülər (6,78).

Göründüyü kimi, qloballaşma prosesi olduqca mürəkkəb tendensiya olmaqla yanaşı, özündə olduqca geniş sahə və istiqamətləri ehtiva edir. Bu proses vahid məqsədə xidmət edir: qlobal inteqrasiyanın ən yüksək səviyyədə reallaşdırılmasına və hegemon güc mərkəzlərinin əsasında dayandığı "qlobal imperatorluğun" formalaşdırılmasına.

## ƏDƏBİYYAT


1. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 162-163 s.
2. Hikmət Babaoğlu. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı: Çinar-Çap, 2014, 425-427 s.
3. Politologiya. İzahlı lüğət. Bakı: Şərq-Qərb, 2007, 56 s.
4. Erol Bilbilik. Amerikan kuşatması, Büyük oyunun perde arkası, İstanbul: Filiz Kitab evi, 2008, 97-99 s.
5. Ergin Feridun. Uluslararası Politika Stratejileri. İstanbul: İstanbul Üniversitesi Yayınları, 2009, 28 s.
6. Koray Cevecioğlu. Küreselleşme – yeni dünya modeli . Ankara: SBF Yayınları, 2004, 76-78 s.
7. Suat Bilge. Milletlerarası Politika. Ankara: İstanbul Üniversitesi Yayınları, 2006, 82-83 s.
8. Suat İlhan. Türklerin jeopolitiği və Avrasyacılık. Ankara: Avrasiya Yayınları, 2005, 112-113 s.
9. Современные международные отнощения / Под редакцией А.В.Торкунова. М.: Юрист, 2007, 172 с.
10. Hoffman Stanley. Theory and İnternational Relations. New York: The Free Press, 2008, 30-32 p.
11. Wallerstein I. Geopolitics and Geoculture. London: Cambridge University Press, 2009, 80 p.


## ПРОЦЕСС ГЛОБАЛИЗАЦИИ КАК ОДНА ИЗ ОСНОВНЫХ ТЕНДЕНЦИЙ СОВРЕМЕННОЙ МИРОВОЙ ПОЛИТИКИ


**Н.В.ГАЛАНДАРОВ**



**РЕЗЮМЕ**

В статье говорится о сути, характеристике и основных направлениях процесса глобализации. Дан сравнительный анализ основным особенностям политической, экономической и культурной глобализации. Этот процесс был характеризован как основная тенденция современной мировой политики, а также был представлен в исследовании разных аналитиков. Было исследовано влияние тенденции глобализации на судьбы национальных государства и их будущее.



**Ключевые слова:** глобализация, система международных отношений, национальные государства, геополитическая трансформация, политическая интеграция

**THE PROCESS OF THE GLOBALIZATION IS AS ONE OF THE BASIC TENDENCIES OF MODERN WORLD POLITICS**

**N.V.GALANDAROV**

**SUMMARY**

In the article deals with essence, characteristics and main directions of the process of globalization. Main features of political, economic and cultural globalization are analysed comparatively. This process is characterized as one of the main tendencies of modern world politics, noted thoughts of various researchers. In the article deals with influence to the fate of the national states and future results of the globalization.

**Key words**: globalization, system of international relations, national states, geopolitical transformation, political integration